"Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Sarsılmaz qətiyyətin, hərbi qüdrətin, iqtisadi gücün nümayişi

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib

27 sentyabr - İkinci Qarabağ müharibəsinin başlandığı gün. Bu gün tarixə yazıldı və əsrlər, qərinələr keçsə, min illər ötsə belə, öz mahiyyətini itirməyəcək, dövlətçilik tariximizin ən şərəfli, qürurlu səhifələrindən biri olaraq xalqımızın yaddaşından heç bir zaman silinməyəcək. O gün qəhrəman Azərbaycan əsgəri Vətənin bütövlüyü uğrunda döyüş meydanına atıldı, uzun illər qəlbində yaraya dönmüş Qarabağı düşmən əsarətindən qurtarmaq üçün ölümü belə gözə aldı. Al qanı ilə Vətən yolunda canından keçdi, cəmi 44 gün ərzində misilsiz şücaət göstərərək 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi. Mərd oğullarımızın qanı ilə yazılan Zəfər salnaməsi 44 günlük qısa, lakin şərəfli hərb tariximizin qələbə nidasına döndü.

Qalibiyyət ruhu, yenilməzlik, dəmir yumruq kimi möhkəm xalq-iqtidar birliyi xalqımızın mənliyini, kimliyini özünə qaytardı. İşğal altında olan torpaqlarımız - Cəbrayıl, Füzuli, Zəngilan, Ağdam, Qubadlı, Kəlbəcər, Laçın rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, digər qəsəbələr, yüzlərlə kənd, strateji yüksəkliklər işğaldan azad olundu. Qarabağ Zəfəri bütün cahana səs saldı, düşmənə hərb meydanında qan udduran vətənpərvər oğullarımızın rəşadəti dünyada dolaşdı, Şuşa fatehlərinin şücaəti dillərdə dastan oldu. Yaxın-uzaq ölkələr, dost-düşmən, bir sözlə, bütün dünya uzun illər Ermənistanın işğalçılıq siyasətinə, vandallığına, təxribatlarına səbir, təmkin göstərən Azərbaycanın gücünə, qüdrətinə şahid oldu.

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı dosta fəxarət, qürur yaşatdı. 30 il erməni dəyirmanına su tökən, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, əhalisinin məcburi köçkün düşməsinə göz yuman hay havadarlarının bağrı yarıldı. Erməni işğalçıları üzərində şanlı Qələbəyə həsr olunmuş Zəfər paradında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Əminə Ərdoğan iştirak etdilər. 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayiş olunduğu hərbi paradda çıxış edən Ali Baş Komandan İlham Əliyev dedi: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən Azərbaycana siyasi-mənəvi dəstəyini əsirgəməyən, Türkiyənin Azərbaycanın yanında olduğunu bəyan edən Prezident Rəcəb Tayyib Ərdoğan bu tarixi gündə Azərbaycanda olmaqdan böyük məmnunluq duyduğunu bildirdi və 30 ildən sonra Qarabağı ana Vətənə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətinə təbrikini xalq şairi Bəxtiyar Vahabzadənin sözləri ilə ifadə etdi:

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

Türkiyə-Azərbaycan münasibətlərində hər zaman ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət", Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" şüarını rəhbər tutan Rəcəb Tayyib Ərdoğan otuz illik Qarabağ yarasının sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün Azərbaycanda olduğunu dedi: "Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!".

İki qardaş ölkənin dövlət başçılarının çıxışından sonra Azərbaycanın hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi olan Zəfər Paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Milli Ordumuzun qoşun növlərinin, hərbi hissələrin bayraqları Azadlıq meydanına gətirildi. Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları, Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları, Xarici Kəşfiyyat Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları tribuna önündən keçdikcə bütün dünya güclərini qarşısına alaraq heç bir dövlətdən çəkinmədən, güclü iradə, prinsipiallıq, cəsarət nümayiş etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik, uzaqgörən liderliyi ilə qazanılan möhtəşəm qələbə ilə hər bir Azərbaycan vətəndaşı fəxr etdi. Bu tarixi anları ona bəxş edən qəhrəman oğullarımızla qürur duydu.

Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikanın bir qismi, 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya, xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu, Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı Azərbaycan əsgər və zabitinin gücünün, vətənpərvərliyinin nümayişi idi. Üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER", "NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, zirehli transportyorlar, "T-72", "T-90S" tankları, modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket kompleksləri, "S-300 Favorit" sistemləri, ən müasir PUA-lar, özüyeriyən haubitsa və artilleriya qurğuları, tank əleyhinə komplekslər, yaylım atəşli reaktiv sistemlər, əməliyyat-taktiki raket sistemləri və s. XXI əsrin müharibəsini aparan Azərbaycan Ordusunun hərbi qüdrətinin nümayişi oldu.

Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların tribuna önündən keçməsi bütün türk dünyasının birliyinin, həmrəyliyinin simvoluna çevrildi. Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamlayan "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri iki qardaş ölkənin birliyinin sarsılmazlığını və bu birlikdən güc alan türk dünyasının yenilməzliyini dünyaya bəyan etdi.

Mehparə ƏLİYEVA,
"Respublika".